BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Sosial-siyasi elmlər seriyası* 2009

# ORTA SINIF: FORMALAŞMASI, INKIŞAFI, PERSPEKTIVLƏRI

**O.Y.HACIYEV**
***Bakı Dövlət Universiteti***

Orta sinif cəmiyyətin elə hissəsidir ki, öz statusuna görə yüksək və aşağı siniflər arasında aralıq mövqe tutur. O, bir sıra əlamətlərinə: gəlir səviyyəsinə, istehlak standartlarına, maddi və intellektual mülkiyyətə malik olmasına, təhsil və qabiliyyət səviyyəsinə, yüksək ixtisaslı əməyinə görə seçilir və cəmiyyətdə xüsusi rol oynayır. Onun cəmiyyətdə rolunu obrazlı şəkildə insan orqanizmində tarazlıq və sabitliyi təmin edən onurğa sütununun rolu ilə müqayisə etmək olar (9,139). Orta sinfə, bir qayda olaraq, iqtisadi müstəqilliyə sahib olanlar (sahibkarlar), eləcə də, cəmiyyət tərəfindən yüksək qiymətləndirilən peşəkarlar-alimlər, həkimlər, vəkillər, menecerlər, bankirlər, başqa sözlə, cəmiyyətin özəyini təşkil edən insanlar daxil edilir. Orta sinfin hələ formalaşmadığı və ya ümumiyyətlə, olmadığı cəmiyyət stabil ola bilməz.

İlk dəfə cəmiyyətə münasibətdə «orta təbəqə» anlayışını Aristotel işlətməyə başlamışdır. Müasir dövrümüzdə bir cox alimlər tərəfindən işlədilən «orta sinif nə qədər böyük olarsa, cəmiyyətin özü bir o qədər stabil olar» fikri də məhz Aristotelə məxsusdur.

XVII əsrdə İngiltərədə orta təbəqə anlayışında xüsusi qrup mülkiyyətçiləri və sahibkarları göstərilirdilər. Getdikcə bu anlayışa kicik və orta sahibkarları, azad peşə sahiblərini və ümumiyyətlə, iri burjuaziya və muzdlu əmək işçiləri arasında aralıq mövqe tutan insanları aid etməyə başladılar. Orta sinfə iki əsas kateqoriya daxildir: maddi mülkiyyət sahibləri (məsələn, xırda burjuaziya) və intellektual mülkiyyət sahibləri (məsələn, menecerlər, alimlər, mühəndislər).

XX əsrdə orta təbəqə anlayışı geniş yayılmağa başladı. Belə ki, cəmiyyətin bu hissəsinin böyüməsi, sayca çoxalması məhz bu dövrə təsadüf edir. Bu təbəqənin xüsusi çəkisi artdıqca cəmiyyətdə inqilabların, millətlərarası münaqişələrin, sosial kataklizmlərin baş verməsi ehtimalı aşağı düşür.

Orta sinfin təhlili ilə bir cox görkəmli elm xadimləri, o cümlədən Maks Veber, Norman Elias, L.Uorner, D.Qoldtorp və b. məşğul olmuşlar. Hətta cəmiyyətin sosial strukturunu mütləq şəkildə iki sinifdən – proletariat və burjuaziyadan ibarət olduğunu israr edən marksistlər belə aralıq sosial qrup kimi orta sinfin mövcudluğunu qəbul edirdilər.

XX əsrin əvvəllərində orta sinfə kicik mülkiyyətçilər və sahibkarlar aid olunurdular. Bu dövrdə inkişaf etmiş ölkələrdə «ümumi rifah cəmiyyətinin» inkişafı ilə paralel ixtisaslı işçilərin həyat səviyyəsi yüksəlir və orta təbəqənin genişlənməsi prosesi baş verirdi. Menecerlər, vəkillər, mühasiblər, elmi işçilər kimi yüksək maaşlı işçilərlə yanaşı, məktəb və universitet müəllimləri, həkimlər, müxtəlif kontor işçiləri və

başqa kütləvi ixtisas nümayəndələri də orta təbəqə səviyyəsinə yüksələ bilirdilər.

Sosial fəlsəfi fikirdə orta sinfin əsas meyarları barədə daimi mübahisələr gedir. Bu meyarlar sırasında daha cox təhsil və gəlirlərin səviyyəsi, istehlak standartları, maddi və ya intellektual mülkiyyətə sahiblik, yüksək ixtisaslı əməklə məşğuliyyət kimi keyfiyyətlərin adları cəkilir. Bütün bu obyektiv xüsusiyyətlərlə yanaşı, bir subyektiv keyfiyyət də – insanın özünün özünü, sosial ierarxiyada tutduğu yeri qiymətləndirməsi, başqa sözlə, orta təbəqənin nümayəndəsi olaraq «özünüeyniləşdirməsi» prosesi çox mühüm əhəmiyyətə malikdir.

Orta sinfin strukturuna 2 yanaşma mövcuddur. Bir qisim müəlliflər orta sinfi kifayət qədər yekcins sosial qrup kimi nəzərdən keçirir. Qeyd olunur ki, orta sinfin nümayəndəsi aşağı sinfə nisbətən daha çox gəlirlərə və yaxşı əmək şəraitinə malikdir. Yüksək siniflə müqayisədə isə bu parametrlər nisbətən aşağı səviyyədədir. Daha geniş yayılan ikinci variant orta sinfin yekcinsliyini qəbul etmir. Məsələn, müasir Britaniya sosioloqu Entoni Giddensə görə orta sinfin daxilində iki əsas kateqoriyanı ayırmaq mümkündür:

**Birinci kateqoriya** – «köhnə orta sinif» kicik sahibkarları birləşdirir. Bu kateqoriyadan olanların sayı daimi olmasa da, əhali arasında xüsusi yüksək çəkisini saxlayır. Bu bir sıra sahibkarların aradan çıxması, onların yerinə biznes və istehsalda öz qüvvələrini sınamaq istəyən digərlərinin gəlməsi ilə bağlıdır.

**İkinci kateqoriya** – «yeni orta sinif» bir qayda olaraq, intellektual əməklə məşğul olan yüksək maaşlı muzdlu işçilərdən ibarətdir. «Yeni orta sinfin» yüksək təbəqəsini iri biznes sferasında çalışan menecer və mütəxəssislər təşkil edir. Bu insanlar bir qayda olaraq ali təhsilli, yüksəkixtisaslı mütəxəssislərdir. Bu kateqoriyanın aşağı təbəqəsinə isə müəllimlər, həkimlər, idarə işçiləri və b. daxildir.

Adları çəkilən iki kateqoriya arasında dəqiq müəyyənləşmiş sərhədlər yoxdur. Bundan başqa, onlar arasında daimi inteqrasiya mövcuddur. Belə ki, «köhnə orta sinfin» sayı durmadan azalır və əksinə «yeni orta sinif» kəmiyyətcə çoxalır. İndi orta sinfin əksər nümayəndələrinin gəlirini əvvəllər olduğu kimi xüsusi mülkiyyətə sahiblik yox, onların şəxsi əməyi və ixtisas vərdişləri müəyyənləşdirir.

Ümumiyyətlə, insanların, sosial birliklərin müxtəlif əlamətlərlə səciyyələnən bərabərsizliyi cəmiyyətin bütün tarixi inkişafı boyu onun başlıca xüsusiyyətlərindən biri olmuşdur. Hələ antik dövrdə Platon özünün sosial bərabərsizlik modelini işləyib hazırlamış və onu ruhun səviyyələri haqqında təlimində əsaslandırmışdır (13, 271). O, sosial bərabərsizliyin, ədalətsizlik və sosial iztirabların səbəbini xüsusi mülkiyyətdə görürdü. Platondan fərqli olaraq, digər antik filosof Aristotel xüsusi mülkiyyətin tərəfdarı idi. O, sosial bərabərsizliyin əsasını mülkiyyət münasibətləri ilə deyil, insan təbiəti ilə əlaqələndirirdi. Aristotel quldarlığı cəmiyyətin təşkilinin təbii vəziyyəti hesab edərək deyirdi ki, «öz təbiətinə görə biri qul, digəri isə azad insandır» (12, 187). Bununla yanaşı, Aristotel həmçinin qeyd edirdi ki, cəmiyyətin əmin – amanlığı üçün sərfəli orta sinifdir.

Klassik alman filosofu Hegel yazırdı ki, əmlakın bölgüsündə bərabərlik tətbiq olunsa belə, o, qısa müddətdən sonra pozulacaqdır. Buna görə də, həyata keçirilməsi mümkün olmayan şeyi həyata kecirməyə cəhd göstərmək lazım deyildir. Guya ədalətin mülkiyyət bərabərliyini tələb etdiyi müddəası yalandır, çünki ədalət hər bir adamın

müəyyən xüsusi mülkiyyətə malik olmasını nəzərdə tutur (6, 109).

Sosial stratifikasiyasının görkəmli araşdırıcısı Rusiya mənşəli amerikan sosioloqu Pitirim Sorokinin fikrincə, sosial bərabərsizlik cəmiyyətin sosial strukturunun cıxış nöqtəsini təşkil edir. Sosial bərabərsizlik əbədidir və buna görə də sosial stratifikasiya cəmiyyətin daimi səciyyəsidir. Bütün üzvlərinin bərabər olduğu cəmiyyət mövcud olmayıb və mövcud da deyildir. Təbəqəsiz, bütün üzvlərinin bərabər olduğu cəmiyyət-insanlıq tarixində hec vaxt reallaşa bilməyən mifdən başqa bir şey deyildir. Sorokinə görə sosial stratifikasiya mövcud insanlar məcmusunu (əhalini) ierarxiya dərəcəsində siniflərə parçalamaq deməkdir (11,302). Stratifikasiya yüksək və aşağı təbəqələrin mövcudluğunda öz əksini tapır. Onun mahiyyətini və əsasını hüquq və imtiyazların, məsuliyyət və öhdəliklərin qeyri-bərabər bölgüsü təşkil edir.

Sosial stratifikasiya nəzəriyyəsi marksizmin sosial sinfi struktur nəzəriyyəsinin inkarıdır. Marksizm cəmiyyətin sosial strukturunu araşdırarkən yalnız bir vacib meyara - istehsal vasitələri üzərində mülkiyyət münasibətlərinə əsaslanırdı. Buna görə də marksist nəzəriyyə cəmiyyətdə yalnız iki - mülkiyyətcilər (quldarlar, feodallar, burjuaziya) və istehsal vasitələri üzərində mülkiyyətdən məhrum olunmuş sinifləri (qullar, proletariat, həmcinin mülkiyyət üzərində məhdud hüquqa malik kəndlilər) fərqləndirirdi. Lakin XX əsrin əvvəllərində cəmiyyətin sosial strukturuna belə yanaşmanın məhdudluğu üzə çıxdı. Sosial stratifikasiya nəzəriyyəsi göstərdi ki, nəinki təkcə gəlirlərin miqdarı və mülkiyyət münasibətlərinin daxil olduğu iqtisadi meyar, eləcə də müəyyən siyasi elitaya məxsusluq, sosial nüfuz, qohumluq əlaqələri və s. əlamətlər fərdin və ya qrupun sosial ierarxiyada yerini müəyyənləşdirir. Bundan başqa, XX əsrin ikinci yarısında cəmiyyətin özündə keyfiyyət dəyişikliyi - industrial mərhələdən postindustrial mərhələyə keçid baş verdi. Sosial stratifikasiya nəzəriyyəsinin tərəfdarlarına görə keçmiş cəmiyyətin, o cümlədən, industrial kapitalist cəmiyyətinin sosial strukturunun təhlili ücün sinif anlayışı müəyyən mənada qəbul ediləndir, lakin müasir postindustrial cəmiyyətdə marksizmin sinif anlayışı işləmir. Çünki əsas sinifyaradıcı əlamət kimi çıxış edən mülkiyyət artıq Marksın dövründə olduğu dərəcədə əməyin nəticələrinin mənimsənilməsi yollarını müəyyənləşdirmir. Bu cəmiyyətdə iri səhmdarların istehsalın idarə olunması sferasından çıxarılması və onların muzdlu menecerlərlə əvəz olunması ilə əlaqədar mülkiyyət münasibətləri heçə enmişdir, öz müəyyənediciliyini itirmişdir. Qərbdə industrial cəmiyyətlərin sosial siyasətində dəyişiklik və bununla əlaqədar insanların həyat səviyyəsinin yüksəlməsi bu cəmiyyətlərin sinfi strukturunda əsaslı dəyişikliklərə səbəb oldu. Yüksək həyat standartları, intensiv sosial mobillik və gəlirlərin yenidən bölgüsü orta təbəqələrin sayının artması və bununla da siniflərarası sərhədlərin itməsi kimi tendensiyalara gətirib cıxardı. Bu dəyişikliklər sinfi ideologiyaların yox olması və sinfi münaqişələrin zəifləməsi ilə nəticələndi. Orta təbəqənin nümayəndələri müasir cəmiyyətdə iqtisadi, siyasi və sosial stabilliyin qarantı kimi cıxış etməyə başladılar.

Müasir cəmiyyətdə diferensiasiyanın mühüm meyarı kimi əməyin xarakteri çıxış edir. Bu əsasda cəmiyyətdə idarəedicilər, mühəndislər, ixtisaslı və ixtisassız fəhlələr kimi sosial qrupları ayırmaq mümkündür. Bu cür diferensiasiya sənaye cəhətdən inkişaf etmiş bütün ölkələr ücün universal əhəmiyyətə malikdir və mülkiyyət meyarı burada əhəmiyyətli

rol oynamır. Buna görə də, sosial stratifikasiya nəzəriyyəsinin tərəfdarları göstərirlər ki, cəmiyyət daxilindəki dəyişiklikləri daha dərindən araşdırmağa imkan vermədiyinə görə sinif anlayışı strata - təbəqə anlayışı ilə, cəmiyyətin sosial sinfi təşkili nəzəriyyəsi isə sosial stratifikasiya nəzəriyyəsi ilə əvəzlənməlidir.

Beləliklə, Qərbdə sosial bərabərsizlik sosial stratifikasiya konsepsiyasında cəmiyyətin sosial strukturunun təhlilində başlanğıc nöqtəsi kimi cıxış etdiyi halda, marksist nəzəriyyədə əsas diqqət ictimai inkişafın başlıca subyektləri olan siniflər arasındakı münasibətlərin inkişafına yönəlmişdir. Kecmiş sovet dövründə cəmiyyətin sosial sinfi strukturu problemi sosial bərabərsizliklə əlaqədə öyrənilmirdi. Bütün elmi işlərdə sovet cəmiyyəti sosial ziddiyyətlər, antaqonizm və konfliktlərin mövcud olmadığı, sosial-siyasi cəhətdən bərabər cəmiyyət kimi təsvir edilirdi. Bu sahəyə müraciət olunduqda da, sosial bərabərsizlik iqtisadi sahə, əmək və məişət şəraiti və ya əmək haqqının səviyyəsinin öyrənilməsi ilə məhdudlaşır, bu və ya digər siniflərin nümayəndələrinin imtiyazlarından söz düşdükdə isə buna istehsal münasibətlərinin elementi kimi baxılırdı. Yalnız 1990-cı illərin əvvəllərindən başlayaraq, cəmiyyətin sosial - sinfi strukturunun təhlilində mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Bu, ilk növbədə, Qərbdə bu sahədə mövcud olan elmi işlərlə, o cümlədən M.Veber, E.Giddens, E.Dyurkheym, R.Darendorf kimi mütəfəkkirlərin fikirlərilə tanışlıqla da bağlı idi. Məhz bundan sonra cəmiyyətin sosial-sinfi strukturuna stratifikasion yanaşma butünlüklə qəbul edildi. Cəmiyyətdə gedən müasir prosesləri təhlil edən mühüm sosioloji əsərlər meydana gəldi.

Müasir qərb sosial fəlsəfi fikrində ümumiyyətlə cəmiyyətin sosial strukturunun gələcək inkişafı ilə bağlı mübahisələr davam etməkdədir. Bir qisim müəlliflər belə hesab edir ki, müasir postindustrial cəmiyyətdə siniflər artıq mövcud deyildir. Məsələn, U.Bek qeyd edir ki, İkinci dünya müharibəsindən sonrakı proseslər cəmiyyətdə siniflər və təbəqələrin itməsinə gətirib çıxarmışdır (10, 11). O, etiraf edir ki, sinfi cəmiyyətin obrazı, sosial bərabərsizlik, yoxsulluq və işsizlik kimi onun müxtəlif xüsusiyyətləri hələ də qalmaqdadır. Lakin onlar sinfi xarakter daşımır. İndi ictimai problemlər fərdi şəkildə özünü biruzə verməkdədir. Buna görə də, işsizlik, yoxsulluq müxtəlif sinifləri, qrup və təbəqələri deyil, ayrı-ayrı individləri əhatə edir. L.Şovel isə cəmiyyətin sosial strukturuna yanaşmasında nisbətən ehtiyatlı davranır. O bildirir ki, müasir cəmiyyətlərdə marksist anlamda siniflər mövcud deyil. Cünki, marksist nəzəriyyəyə görə cəmiyyətin siniflərə bölgüsünün əsasında yalnız istehsal vasitələri üzərində xüsusi mülkiyyətçilik münasibətləri durur. Bununla belə L.Şovel göstərir ki, müasir cəmiyyətlərdə Veber anlamında siniflər mövcuddur və onlar daha çox sosial təbəqələr şəklində fəaliyyət göstərir.

Müasir dövrdə əgər inkişaf etmiş ölkələrin sosial strukturunu nəzərdən keçirsək, onda burada sayca cox olmayan aşağı (yoxsul təbəqə) və yüksək (varlı təbəqə) sinifləri, eləcə də daha böyük orta sinfi görmüş olarıq. Qərbdə orta təbəqənin xırda və orta biznes nümayəndələri, fermer və kəndlilərin, intellektualların, mühəndis-texniki işçilərin, qulluqçuların, yüksək ixtisaslı fəhlələrin, iaişə xidməti sahəsində çalışan işçilərin böyük əksəriyyəti təşkil edir. İnkişaf etmiş ölkələrdə orta sinif əhalinin təxminən 60-70%-ni təşkil edir və tutduğu orta vəziyyətə görə sosial ierarxiyanın qütbləri arasında qarşıdurmanı aradan qaldıraraq, özünəməxsus əlaqələndirici rolu həyata kecirir. Orta sinfin həcmi

artdıqca onun fundamental sərvətlərinin qədəri də artır. İqtisadi böhranlar zamanı orta sinfin vəziyyətindəki qeyri-sabitlik cəmiyyətdə ciddi sarsıntılara səbəb olur.

Orta sinif ənənəvi olaraq sosial münasibətlərin tənzimlənməsində və vətəndaş cəmiyyətinin qurulmasında vacib rol oynayır. Belə ki, mədəni sahədə orta sinif müasir cəmiyyətin əsas dəyər və ənənələrinin daşıyıcısı, sosial münasibətlərdə isə siyasi stabilliyin və vətəndaş cəmiyyətinin formalaşması və inkişafının təminatçısı kimi cıxış edir. Cəmiyyətin düzgün idarə olunması, hərtərəfli təkmilləşməsi, demokratiyanın inkişafı və s. orta təbəqələrin cəmiyyətdəki mövqeyindən cox asılıdır. Bu və ya digər cəmiyyətdə orta təbəqələrin üstünlük təşkil etməsi sosial ədalətin həqiqi göstəricisi kimi çıxış edir. Hec də təsadüfi deyil ki, inkişaf etmiş qərb ölkələrində hökumətin nüfuzu və buna uyğun mövqeyi xeyli dərəcədə əhalinin sosial müdafiəsinin praktiki olaraq necə həllindən asılıdır. Əhalinin müxtəlif kateqoriyalarının gəlir və təhsil səviyyəsinin yüksəldilməsi, peşə ixtisasının təkmilləşdirilməsi sosial strukturun sağlam istiqamətdə inkişafının mühüm göstəricisidir.

İnkişaf etmiş ölkələrdə əsas sosial qrup olaraq orta təbəqə bir cox vacib sosial funksiyaları yerinə yetirir. Bu funksiyalar sırasında ən vacibi sosial stabilizator (tənzimləyici) funksiyasıdır. Belə ki, cəmiyyətin sosial strukturunda xüsusi yerə sahib olan orta sinif nümayəndələri bu vəziyyətə nail olmağa imkan verən dövlət quruluşunu həvəslə müdafiə edirlər. Bu təbəqə həmişə ona müəyyən imkanlar yaradan cəmiyyətin mövcudluğunda, qorunub saxlanmasında maraqlıdır. Bundan başqa, orta sinif sosial mobillik proseslərində mühüm rol oynayaraq, mövcud ictimai quruluşu sosial kataklizmlərdən qoruyur, yoxsul və varlı təbəqələr arasında mövqeyi ilə onların qarşıdurmasına imkan vermir.

İqtisadi münasibətlər sferasında orta sinif nəinki təkcə cəmiyyətdə gəlirlərin böyük hissəsinin istehsalçısı kimi həm də iri istehlakçı, investor və vergi ödəyicisi olaraq, iqtisadi donor funksiyasını yerinə yetirir. Bu təbəqə kicik və orta biznesin ən mühüm istehlak bazarını təşkil edir. Orta sinif nə qədər böyük olarsa, cəmiyyətdə kiçik biznes bir o qədər inkişaf etmiş olar.

Mənəvi sferada orta sinif cəmiyyətdə müxtəlif dəyərlərin, norma, ənənə və qanunların qoruyucusu və daşıyıcısı kimi mədəni inteqrator rolunu oynayır. İstər dövlət aparatı, istərsə də biznes sahəsini müxtəlif dərəcəli məmurlarla və idarəedicilərlə məhz orta sinif təmin edirdi. Vətəndaş cəmiyyətinin özünü tənzimləməsi də orta sinif nümayəndələrinin aktivliyinə əsaslanır. Orta sinfin bu funksiyası administrativ – icraedici nizamlama funksiyası adlanır.

«Üçüncü dünya» ölkələrinə gəldikdə isə bu cəmiyyətlərin sosial strukturu cox da böyük olmayan yüksək və orta siniflər, eləcə də sayca ən böyük olan aşağı sinifdən ibarətdir. Orta sinfin kiçik olması ona gətirib çıxarır ki, o, inkişaf etmiş ölkələrdə yerinə yetirdiyi funksiyaları burada yerinə yetirə bilmir. Bu, inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi geriliyinin əsas səbəblərindən birini, eləcə də nəticəsini təşkil edir.

Hər bir ölkədə orta sinif bu və ya digər spesifik xüsusiyyətlərə malik olur. Bütün ölkələrdə yaxın və müqayisə edilə bilən keyfiyyətlər təhsil və həyat şəraitidir. Maddi-əmlak münasibətlərində isə daha çox müxtəliflik müşahidə olunur. Əgər Qərbi Avropada orta sinfə məxsusluq qənaətin miqdarı ilə müəyyən olunursa, Amerikada bu, kreditdən geniş

istifadə ilə bağlıdır. İş burasındadır кi, orta statistiк avropalı müəyyən yeni malı əldə etməк üçün uzun müddət öz gəlirlərinin bir hissəsini toplayırsa, ABŞ-da bu кredit yolu ilə həyata кecirilir.

Beləliкlə, inкişaf etmiş ölкələrdə orta sinfi sahibкarlar, ziyalılar, yaradıcılıq nümayəndələri, yüкsəкixtisaslı işçilər təşкil edir. Bununla belə, «aşağı orta» sinfə ixtisaslı işçilər, «orta orta» sinfə кiçiк sahibкarlar, məmurlar, «yüкsəк orta» sinfə isə idarəedicilər, menecerlər, eləcə də irsi sərvətə maliк olanlar aid edilir. Elmi-texniкi inqilab dövründə orta sinfin daxilində yüкsəк texnologiyalar sferasında çalışanlar ayrılmağa başladı. «Yeni orta» sinif termini daha cox bu «post-industrial işçilərə» münasibətdə işlədilir.

Bir sıra sol radiкal ictimaiyyətçilərin fiкrincə, orta sinif eyni zamanda həm istismar olunan, həm də istismar edən qüvvə кimi çıxış edir. Belə кi, bir tərəfdən, o iri кapital nümayəndələri tərəfindən istismar olunur, digər tərəfdən isə özü muzdlu əməyin istismarında iştiraк edir. Müasir кapitalizmin digər tənqidçiləri qeyd edirlər кi, müasir dünyada orta sinif nümayəndələri öz həyat səviyyələrini qaldırmaq və ya ən azı qoruyub saxlamaq üçün daimi stres halında yaşamağa məcburdurlar. Ənənəvi proletariat aradan qalxdıqca sosialist ideyanın tərəfdarları öz ümidlərini «orta sinfin üsyanına» bağlayırlar. Liberal dairələr isə əкsinə, orta sinfi mövcud quruluşun dayağı adlandırırlar.

Beləliкlə, orta sinfin formalaşması bazar iqtisadiyyatı yolunu tutmuş cəmiyyətin inкişafının zəruri bir mərhələsini təşкil edir. Cəmiyyətin sonraкı inкişaf dövrü – postindustrial cəmiyyətin sosial struкturunda orta sinfin mövcudluğu кifayət qədər az bir müddətə təsadüf edə bilər. Bu, sosial qruplar, təbəqələr və siniflər arasındaкı münasibətlər yüкsəк səviyyədə inкişaf edəcəyi təqdirdə baş verə bilər.

**ƏDƏBİYYAT**

**(Azərbaycan dilində)**


1. Abbasov Q., Hacıyev Z. Sosial fəlsəfə. Baкı: Ayna mətbu evi, 2001, 505 s.
2. Abbasov Ə. Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə. Baкı: Elm, 1998, 56 s.
3. Arslantürк Z., Amman Tayfun M. Sosyoloji İstanbul: 2001, 210 s.
4. Marкs K., Engels F. Seçilmiş əsərləri, 3 cilddə, I c., Baкı: Azərnəşr, 1978, 656 s.
5. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Baкı: Baкı Universiteti nəşriyyatı, 2001, 514 s.

**(Rus dilində)**

6. Гегель Г.В. Философия права. М.: Мысль, 1990, 524 с.
7. Голенкова З.Т. Средние слои в современной России // Социологическое исследование. 1992, №4, с. 44-53.
8. Комаров М.С. Социальная стратификация и социальная структура // Социологическое исследование, 1992, №7, с. 62-72.
9. Кравченко А.И. Социология. М.: ТК Велби, 2005, 536 с.
10. Силичев Д.А.Социальные последствия перехода от индустриализма и модерна к постиндустриализму и постмодерну // Вопросы философии. 2005, №7, с. 3-20.
11. Сорокин П. Человек, цивилизация, общество. М.: Политиздат, 1992, 543 с.
12. Тихонова Н.Е. На пути к новой стратификации российского общества // Общественные науки и современность. 1998, №3, с. 24-37.
13. Чанышев А.Н. Аристотель. М.: Мысль. 1987, 220 с.

## СРЕДНИЙ КЛАСС: ФОРМИРОВАНИЕ, РАЗВИТИЕ, ПЕРСПЕКТИВЫ

**О.Ю.ГАДЖИЕВ**

### РЕЗЮМЕ

Проблемы среднего класса считаются одним из самых важных и актуальных вопросов социальной философии. В то же время эта проблема является очень давним предметом исследования в истории философской мысли. Применительно к общественным отношениям понятие «средний класс» впервые употребил еще Аристотель в IV в. до н.э.

В статье определяются основные отличительные черты среднего класса, указываются основные концептуальные подходы к определению его структуры. Здесь всесторонне исследуются предназначение и функции среднего класса в социальной структуре общества на различных исторических этапах его развития, в то же время рассматриваются различные взгляды на развитие этого социального слоя в будущем.

В статье особо подчеркивается традиционно важная роль среднего класса в урегулировании социальных отношений, становлении гражданского общества. Отмечается непосредственная связь между статусом среднего класса в обществе, эффективным общественным управлением и развитием демократии. В статье также делается вывод о том, что большинство среднего класса в том или ином обществе является показателем реально достигнутой социальной справедливости.

## MIDDLE CLASS: ITS FORMATION, DEVELOPMENT AND PERSPECTIVES

**O.Y.GADJIYEV**

### SUMMARY

The problem of middle class is considered to be one of the most important and actual matters of social philosophy. Besides, this problem is one of the oldest fields in the history of philosophy. The notion of «middle class» in relation to the society was first used by Aristotle in the IV century B.C.

The article deals with the main characteristic features of the middle class and main conceptual approaches to identify the structure of this class. The author analyses the roles and functions of the middle class in the social structure of the society within various historical periods in details, and studies some views on the further development of this class.

The important role that the middle class traditionally plays in the regulation of social relations and establishment of civil society is particularly emphasized in the article. The article states that there is a direct relationship between proper management, overall improvement of the society and development of the democracy, and the position of the middle class within the society. The article, summarizes that the advantageous position of the middle class in a society is considered to be the real indicator of social justice.